Şuşa – 270

# Şuşanın dağları başı dumanlı...

**Azərbaycanın nadir Şuşa dağ-iqlim kurortu da Qarabağ silsiləsində yerləşir. Bu şəhərin bir yanında Qırxqız, Sarıbaba, Kirs, Sağsağan, o biri tərəfində isə Bağrıqan, Çaxmaq, Keçəldağ, Qızıldaş... dağları sıralanıb. Hərəsinin də özünəməxsus çalarları, özünə görə nağılları, əfsanələri, rəvayətləri var.**

Qarabağ silsiləsi Kiçik Qafqaz sıra dağlarında şimal-qərbdən cənub-qərbə tərəf 120 kilometr məsafədə uzanır. Silsilənin qərb yamacları çox dikdir, şərq yamacları isə çay dərələri ilə kəsilərək bir neçə qola ayrılır. Hündür təpələrdən, aşırımlardan çağlaya-çağlaya aşıb gələrək Aran Qarabağda bir-birinə qarışan Qarqar, Xaçın, Tərtər, Köndələn, Ağvan, Quruçay, Qozluçay kimi axar sular da öz mənbəyini Qarabağ silsiləsinin sinəsində qaynayan bulaqlardan götürür. Burda polimetal filizlər, tikinti daşları, mərmər, əhəng, kəc, gil və sair faydalı qazıntılar var. Silsilədə, əsasən, palıd, fıstıq, vələs ağacları olan meşə landşaftı geniş yer tutur, üzüm, tütün, taxıl və başqa meyvələr yetişdirilir.

Qırxqız dağı haqqında şeirlərdə, mahnılarda, rəsmlərdə qeyd olunur, bu nəhəng yüksəklik böyük məhəbbətlə tərənnüm edilib. Başı daim "ağ çalmalı", zirvəsi həmişə dumanlı-çənli olan dağın yaranışı haqqında əfsanələrin birində bu adın açımı belə yozulur: "Bir gün qırx nəfər qız "Qızlar bulağı" deyilən çeşmədən cam-cam şərbət kimi su içəndən sonra dünya gözəlinə çevrilirlər. Qızların hər biri lay divar kimi bir oğlan sevir. Lakin nə ilesə cadu edilən oğlanlar ayrı-ayrılıqda uğursuzluğa düçar olur, öz sevgilərinə çata bilmirlər. Qızlar da həyatdan nakam köçürlər. Onların sevgi, məhəbbət oxları daşa dəydiyindən hamısı burda tək-tək eynən daşa dönür". Və o vaxtdan da bu dağın adı "Qırxqız" qalır.

Kirs dağı Şuşa ərazisindədir. Qarabağ silsiləsinin ən yüksək zirvələrindəndir. Hündürlüyü 2725 metrdir. Adının mənası "uca", "böyük", "sıldırım" deməkdir. Əjdaha ağzı kimi haçalı zirvəsi, əsatiri gözəlliyi olan və Qarabağın qüvvət rəmzi sayılan bu məğrur və əzəmətli təbiət abidəsi Orta Yura dövrünün vulkanogen çökmə süxurlarından ibarətdir. Zirvəsi daim buludların içində görünməz, çılpaq və qırmızı rəngli yamacları həmişə qarlı, sinəsi il uzunu yamyaşıl, hündür və qalın yarpaqlı ağaclarla örtülü olan bu dağın ətəyində isə Kiçik Kirs dağı yerləşir. Bəzən ora "Bala Kirs" də deyilir. Toponimin tərkibindəki "kiçik" sözü fərqləndirici əlamət daşıyır. Hündürlüyü 1374 metrdir.

Sarıbaba dağı Şuşa və Laçın rayonları arasında, Qarabağ silsiləsində Qarqar çayının sol qolu Bəzirgansu çayının mənbə hissəsindədir. Hündürlüyü 2295 metrdir, subalp çəmənlikləri ilə zəngindir. Üst Yuranın əhəng daşlarından ibarətdir. Dağ özünün zirvəsində olan Sarıbaba pirinin adı ilə adlandırılmışdır.

Sağsağan dağı qarğalar fəsiləsindən olan sağsağan quşunun adı ilə adlanır. Turşsu qəsəbəsində yerləşir. Bu dağ Qarabağ silsiləsinin şimal-şərq qolunu təşkil edir. Orta Yuranın vulkanogen çökmə süxurlarından və meşələrdən, subalp çəmənliklərindən ibarətdir. Hündürlüyü 2000 metrə çatır.

Keçəldağ Şuşa şəhərindən yüksəklikdə, Qarabağ silsiləsində yerləşir. Şəhərdən 18 kilometr aralıda, dərədədir. Səthi çılpaq, bitkisiz, keçəl olduğundan belə coğrafi ad almışdır. Hündürlüyü 1800 metrə qədərdir. Keçəldağın tərkibi bol dəmirli, çimmək üçün çox faydalı olan müalicəvi mədən suları, təmiz, şəfalı havası və möcüzəli təbiəti var. Bu dərədən axan dağ çayının sol sahilində keyfiyyətdə narzan suyundan da yüksək olan turşsu çıxır. Ordan bir qədər aşağıda tərkibində daha çox dəmir olan bir neçə bulaq var. Keçəldağın ətrafı qəribə dağ havası və gözəl mənzərələrlə zəngindir. Dağ Üst Pilosenin vulkan süxurlarından yaranmışdır. Bir neçə qayalı zirvəsi var.

Çaxmaq dağı Şuşa rayonu ərazisində, Qarabağ silsiləsinin yamacında yerləşir. Həmin dağ sahəsində çoxlu miqdarda çaxmaq daşı olduğu üçün belə adlandırılmışdır.

Qızıldaş dağı Şuşanın yaxınlığındadır. Dağın adı "qızıl" və "daş" sözlərindən ibarətdir. Burda "qızıl" sözü qırmızı mənasında işlənmişdir. Dağ burdakı qırmızıya çalan vulkan mənşəli süxurlu daşa görə bu adı almışdır.

Çaqqala dağının zirvəsində üç təpə var. Onların ətəyində çaqqala ağacları bitdiyindən dağ bu bitkinin adı ilə adlandırılmışdır.

Bağrıqan dağına el arasında "Bağırqan" da deyilir. Qarabağ silsiləsində, Şuşanın şərq tərəfində, Malıbəyli kəndi yaxınlığındadır. Şəhəri əhatə edən dağların davamıdır. O qədər də hündür deyil. Bu toponimin yaranması haqqında xalq etimologiyasına söykənən bir çox əfsanə və rəvayətlər mövcuddur.

Şair, rəssam və musiqişünas-alim Mir Möhsün Nəvvab Qarabağı özünün "1905-1906-cı illərdə erməni-müsəlman davası" adlı kitabında belə bir hadisə söyləyir: "Mərhum İbrahimxəlil xanın hökmranlığı zamanında Pənahabad, yəni, Şuşa qalasının şərq tərəfində "Bağırqan dağı" deyilən yerdə bir uca qaya vardı. Həmin dağda öz təbəələri ilə Avan Koxa adlı bir erməni yaşayırdı. Avan Koxa öz təbəələrinə buyurmuşdu ki, harda əllərinə müsəlman düşsə, tutub onun hüzuruna gətirsinlər. Avan Koxanın əmri ilə tutulmuş müsəlmanı çılpaqlayıb, üzü üstə yerə yıxardılar.

Sonra onun arxasının dərisindən dörd barmaq enində bıçaqla boynundan qom ətinəcən iki tərəfdən xətt çəkdirər və dərinin ucunu aşağı əydirilmiş ağacın qüvvətli bir budağına bənd edib, budağı buraxardılar. Ağacın budağı qüvvətlə yuxarı qalxanda o yazıq müsəlmanın dərisi boynuna qədər soyulardı və onun bağırtısı o dağa düşərdi. Bu əhvalatı görənin və eşidənin də bağrı qan olardı. Buna görə də həmin qayaya "Bağrıqan dağı" adı vermişdilər."

Sal qranit qaya üzərində qartal kimi qanad gərən, "şiş ucları buludlarla döyüşən", kəməndəgəlməz, zirvələri daim qarlı, "başı dumanlı" dağlarına mahnılar, nəğmələr qoşulan bu təbiət gözəli Şuşa ağsaqqal, müdrik qocalar kimi baş-başa verən zəncirvari silsilələrlə əhatələnib. Bir-birinin davamı və dayağı olan bu ulu dağlar isə sanki Qalaya gecə-gündüz keşik çəkən ən sadiq əsgər təsiri bağışlayır. Və bu dağlardan baxanda Şuşanın bütöv mənzərəsi göz qabağında açılır, insan xəyalını çox-çox uzaqlara aparır.

Xəzinə qayasına bəzən "Xəzinə dərəsi" də deyilir. Şuşanın cənub-şərq tərəfində, sıldırım qayalar altında, dağ-daş arasındadır. Bu yerin adının yaranması ilə bağlı neçə-neçə rəvayət var. Onların birində deyilir ki, İran hökmdarı Ağa Məhəmməd şah Qacarın 1797-ci ilin yayında Şuşada başı kəsiləndən sonra İbrahimxəlil xan Cavanşirin qardaşı oğlu Batmanqılınc Məhəmməd bəy hakimiyyəti ələ aldı. Ancaq bir müddətdən sonra əmisinin qayıdıb, Şuşaya gəlmək istəməsi xəbərini eşidib, özünün hakimiyyəti dövründə xalqdan yığdığı gümüş və cavahiratı və Ağa Məhəmməd şahın Qarabağda və hərbi səfərlərdə olduğu başqa yerlərdən qarət edib, topladığı qiymətli əşyaları, daş-qaşı, qızıl-gümüşü, zinət əşyalarını, külli miqdarda pulu və sair qiymətli şeyləri başqalarının əlinə keçməsin deyə, mis qablara doldurub, gizlətmək qərarına gəlir.

Bu qabları gecə vaxtı iki erməniyə yükləyib, "Qırxpilləkən"dən Daşaltıya enərək meşənin dərinliyində, Kirs dağına baxan daşlı-kəsəkli bir yerdə gizlədir. Sirrin üstü açılmasın deyə, getdiyi yolla geri qayıdarkən həmin erməniləri qayadan atır. Bu sirri yalnız sonralar arvadına deyir. Və elə o vaxtdan da sərvətin basdırıldığı bu sirli-macəralı yerə el arasında "Xəzinə qayası", ya da "Xəzinə dərəsi" deyilir.

Sonralar xəzinəni tapmaq üçün bəzi adamlar dəfələrlə orada qazıntı işləri, axtarış aparsalar da, heç nəyə nail ola bilməyiblər.



Cıdır düzü Şuşanın cənub-qərbində, dəniz səviyyəsindən 1500 metr yüksəklikdə, Üçmıxın, Ağzıyastı kahanın, Qırxpilləkənin, Mir Fəseh bağının əhatəsindədir. Bir yanı Qayabaşına doğru uzanıb-gedən qala divarları və onların davamı olan sıldırım qayalar, keçilməz keçidlər, uçurum dərələrdir, üzbəüzdə isə Çaxmaq meşəsi, Xəzinə qayası, Topxana, İbrahimxəlil xanın kahasıdır, baş-başa verən qayaların altında burula-burula axaraq sanki öz həzin səsiylə Cıdır düzünə layla çalan Daşaltı çayıdır.

"Şuşanın ürəyi İsa bulağıdırsa, başının tacı Cıdır düzüdür". Bu deyimin naməlum müəllifi heç də səhv etməyib. Qarabağın əzəmət və qəhrəmanlıq rəmzidir, ən uca gözəllik zirvəsidir bu yaşıl orman, yaşıl çəmən, yaşıl düz. Təbiətin öz əli ilə yaradıb sığal çəkdiyi sehrkar bir lövhəsidir, füsunkar gözəlidir, səfalı, mənzərəli guşəsidir Allah-Təalanın şuşalılara bəxş elədiyi bu ulu məkan. Sanki Böyük Yaradanla onun sadiq bəndələri əlbir olub, dilbir olub, dünyada nə qədər gözəllik, füsunkarlıq varsa, ərməğan eləyib bu müqəddəs yerə. Nə qədər əzəmətli, nə qədər xəyali bir görkəmi var bu əbədi gözəlliklər məskəninin.

Qarabağ tarixinin, mədəniyyətinin, ənənələrinin bir parçasıdır, Şuşanın yaraşığı, şuşalıların fəxridir bu fəxarətli guşə. Bu yurdun acılı-şirinli, unudulmaz hadisələrlə dolu həyatının iştirakçısıdır, şahididir bu qədim düz, bu geniş meydan...

Cıdır düzünü görəndə ona heyran olmayan, sevinməyən, qürrələnməyən bir kimsəni təsəvvür etmək çətindir. Çünki burda təbiət öz işini elə düzüb-qoşub ki, bu gözəlliyə heyran olmamaq mümkün deyil. Şairlər onun hüsnünə nahaqdan valeh olmayıblar, bu düzü şeirlərində əbəs yerə vəsf etməyiblər. Bu yurd yazıçılarımızın romanlarında az təsvir olunmayıb. İndi də Cıdır düzünün gözəllikləri dönə-dönə tərənnüm edilir, əzəmətindən, gözəlliyindən, hüsnündən söz açılır.

Nəğməkar şair Rəfiq Zəka bu yerə vurğunluqla yazdığı şeirə görkəmli bəstəkarımız Cahangir Cahangirovun mahnısı dillər əzbəri olub, Şuşanın musiqili rəmzinə çevrilib və bu gün də ən çox oxunan, ən çox dinlənilən, ən çox sevilən melodiyalardandır.

Uca dağlar başında, dərin dərələr kənarındakı bu düzün ilkin ünvanı vaxtilə burda at saxlamış, qoyun-quzu bəsləmiş, bağ əkmiş, bostan becərmiş Qafur adlı bir kişinin adından götürülüb və uzun müddət bura "Qafur düzü" kimi tanınıb. Hələ İbrahimxəlil xan Cavanşirin dövründə bu düzdə cıdır və atçapma yarışları keçirildiyinə görə əraziyə əvvəlcə "Cıdır meydanı", sonralar isə "Cıdır düzü" deyilib.

Keçmişdə burda musiqi ilə müşayiət olunan yarışlar, müxtəlif şən və əyləncəli oyunlar, bayramlar keçirmək, xalq gəzintilərinə çıxmaq adət halını almışdı. Başqa cür desək, burda cıdırsız və atoynatma olmadan hər hansı bir tədbir keçirmək olmazdı. Həm yaxşı atçapanlardan öyrənmək, həm də atları sınamaq və öyrətmək üçün minicilər Cıdır meydanına toplaşırdılar. Bu yarışlarda hər bir iştirakçı özünün və atının qabiliyyətini nümayiş etdirirdi. Yarışlar bir növ igidlik, cəsurluq müsabiqəsinə çevrilir, gələcək döyüşlər üçün təlim-məşq hesab olunurdu.

Cıdır düzündə adi at yarışları hər həftə, böyük at yarışları isə ildə iki dəfə keçirilirdi. Sovet dövründə isə müxtəlif iri mədəni-kütləvi tədbirlər, bir qayda olaraq, Cıdır düzündə təşkil edilirdi. Şəhər işğaldan azad edildikdən sonra isə ilk dəfə təşkil olunmuş "Xarıbülbül" musiqi festivalı yenidən burada keçirilir.

İbrahimxəlil xanın kahası Daşaltı çayının kənarında, sıldırım qayalar arasındadır. Hündürlüyü iki yüz, eni yüz sajendir (1 sajen 2,134 metr uzunluq ölçüsüdür). Qarabağ hakimi İbrahimxəlil xan Cavanşir bu təbii mağaraya əl gəzdirmiş, müəyyən tikinti işləri aparmış, kahanın girişinin qarşısında yarımdairəvi bürc tikdirmiş və möhkəm hasar çəkdirmişdir. Burda çox soyuq suyu olan bulaq da çıxır. Bu kaha xanın ailəsi və eyni zamanda Şuşa sakinləri üçün ən təhlükəli vaxtlarda etibarlı sığınacaq idi. Deyilənə görə İbrahimxəlil xan xəzinəsini və müəyyən qiymətli əşyalarını da burda saxlayır, vaxtının müəyyən hissəsini burda keçirirdi. Ona görə də kaha xalq arasında "İbrahimxəlil xan kahası" aldanırdı.

Kahanın yalnız bir yeraltı giriş yolu var, çıxış yolu isə yoxdur. Ora ancaq piyada gedib-gəlmək mümkündür. Kahanın qarşısındakı qayanın ortasında eni və uzunu təxminən qırx-əlli sajen olan bir yer var və ordan Daşaltı çayına qədər yüz sajen hündürlükdədir. Kahadakılar kiminsə hücumu zamanı həmin istiqamətdən qalaya və çaya tərəf gəlməyə imkan verməzdilər. 1826-cı ildə İkinci rus–İran müharibəsi dövründə şahzadə Abbas Mirzənin başçılığı ilə düşmən qoşunları Şuşaya hücum edərkən əhalinin bir hissəsi ora pənah aparmışdı və qızılbaşlar kahanı tuta bilməmişdilər.

Sonralar İbrahimxəlil xanın icazəsi ilə qaynatası Məlik Şahnəzər kahanın qapısının ağzında birbaşa xanın otaqlarına baxan bir yerdə öz ailəsi üçün bir neçə otaq tikdirmiş və həmin yerə sonralar "Məlik Şahnəzər kahası" da deyərmişlər.

***Vasif QULİYEV,***
***"Şuşa" qəzetinin baş redaktoru***